*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 1*
*Səhifə: 40-46*
*https://doi.org/10.59849/2663-4406.2024.1.40*

*ISSN: 2663-4406*
*E-ISSN: 2709-2699*

***Orta əsrlər Azərbaycan ədəbiyyatı***

## Azərbaycan Divan şeirinin ilk nümunələri və sözün missiyası

**Əkrəm Həsənov**
İlahiyyat üzrə fəlsəfə doktoru, dosent
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
E-mail: garibekrem@hotmail.com

**Annotasiya.** XII əsr Azərbaycan ədəbiyyatı və incəsənəti tarixində bir sıra əlamətdar hadisələrlə diqqəti cəlb edir: ilk növbədə, Xaqani kimi qəsidə, Nizami kimi məsnəvidə hünər göstərən nəhəng söz sənətkarlarının yetişməsi, həmçinin saray ədəbiyyatının (Gəncədə və Şirvanda) intişat tapması, burada yazıb-yaradan söz ustalarının fəallığı, intibah mədəniyyətinin çiçəklənməsi, sənətin bir çox sahələrinin inkişafı, xüsusilə, memarlığın möhtəşəm nümunələri, Azərbaycanın Şərq və Qərb ölkələri ilə mədəni, ticarət əlaqələrinin intensivləşməsi... Bütün bunlar heç şübhəsiz, zəngin mənəvi irsin yaranmasını şərtləndirirdi. Ədəbiyyat təkcə məzmun baxımından deyil, forma-sənətkarlıq, poetika baxımından da özünü yeniləyir və zənginləşirdi. Təsadüfi deyildir ki, dünya ədəbiyyatının ilk "Xəmsə"si ("Beşlik") də məhz XII əsrdə Nizami qələmində dünyaya gəlmişdir. Qəsidə ədəbiyyatı məhz XII əsrdə geniş intişar tapmışdır. Lirik şeirin digər növləri də bu əsrdə kütləviləşməyə başlamışdır. Klassik poeziyanın ən çox yayılmış janrına çevrilən qəzəlin ilkin uğurları da XII əsrlə bağlıdır. Məqalədə Azərbaycan divan şeirinin ilk nümunələri və nümayəndələri, sözə verilən dəyər kimi məsələlər araşdırılmışdır.
Tədqiqat zamanı tarixi-müqayisəli metoddan, hermenevtikanın imkanlarından istifadə edilmişdir.
**Açar sözlər:** qəsidə, qəzəl, söz, şair, poeziya, ənənə

**Məqalə tarixçəsi:** göndərilib – 02.02.2024; qəbul edilib – 20.02.2024

## The first examples of Azerbaijan Diwan poetry and the mission of the word

**Akram Hasanov**
Doctor of Philosophy in Theology, Associate professor
Institute of Manuscripts named after Muhammad Fuzuli of ANAS
E-mail: garibekrem@hotmail.com

**Abstract.** The 12th century attracts attention with a number of significant events in the history of Azerbaijani literature and art: first of all, the cultivation of great wordsmiths who showed skill in





gasida like Khagani and in masnavi like Nizami, also the development of court literature (in Ganja and Shirvan), the activity of writers and wordsmiths here, the flourishing of renaissance culture, the development of many areas of art, especially magnificent examples of architecture, the intensification of cultural and trade relations between Azerbaijan and Eastern and Western countries... All this, undoubtly, conditioned the creation of a rich spiritual heritage. Literature was renewing itself and enriching itself not only in terms of content, but also in terms of form-craftsmanship and poetics. It is no coincidence that the first "Hamsa" ("Five Treasures") of world literature was written by Nizami in the 12th century. Other types of lyric poetry also have begun popular in this century. The initial successes of the ghazal, which has become the most common genre of classical poetry, are related with the 12th century.
In the article were investigated issues such as the first examples and representatives of Azerbaijani diwan poetry and the value given to the word.
During the research was used the historical-comparative method.
**Keywords:** gasida, ghazal, word, poet, poetry, tradition

**Article history:** received – 02.02.2024; accepted – 20.02.2024

### Giriş / *Introduction*

Yazılı klassik ədəbiyyatda lirik janrlar elə şeir sənəti yarandığı ilk dönəmlərdən poeziyanın aparıcı qolu olmuşdur. Ədəbiyyatımızda ilk şeirlər Divanının müəllifi, XI əsr şairi Qətran Təbrizidən sonra XII yüzillikdə Xaqani Şirvani, Nizami Gəncəvi, Mücirəddin Beyləqani, Qivami Mütərrizi, Əbülüla Gəncəvi kimi Azərbaycan şairləri dövrün ədəbi dəbinin tələbi ilə fars dilində gözəl lirik şeirlər yazmışlar. Görkəmli ədibimiz Cəfər Cabbarlının bununla bağlı dəyərli fikirləri hələ də öz aktuallığını qoruyub saxlamışdır: O, "Azərbaycan türk ədəbiyyatının son vəziyyəti" məqaləsində yazırdı ki, *"bu gün fars dilində gördüyümüz ədəbiyyat ayrıca farsların deyildir. Onun sarsılmaz bir sütununu Cəlaləddin Rumi kimi böyük türk şair və filosoflarının farsca yazdığı "məsnəvi"lər təşkil etdiyi kimi, eynilə ümumi İran mədəniyyəti mühitində olaraq farsca yazmış olsalar da, fəqət əsərləri deyil ki, fars ədəbiyyatına təqlid etməmiş, bəlkə bütün orijinal olub ən qüvvətli fars yazıçılarının ən qüvvətli əsərlərilə rəqabət edə biləcək və bəlkə də, bir çoxlarına üstün gələ biləcək, hətta bir çoxları üçün tərsinə olaraq, təqlid mənbəi edəcək və etmiş olan Nizami, Xaqani kimi Azərbaycan türk ədibləri də vardır ki, bunları unutmaq olmaz. Bu gün bir Azərbaycan türk şairinin farsca yazdığı: "Han ey, dili-ibrətbin, əz didə nəzər kon, han, eyvani-mədainra ayineyi-ibrət dan" kimi əsərlərinə ən qüvvətli fars şairlərinin nə qədər çalışsalar da, bu vaxtadək nəzirə belə yazmadıqları göz önündədir"* [1, s.208].

### Əsas hissə / *Main Part*

Azərbaycan dilində bizə məlum olan ilk lirik şeirin, İzzəddin Həsənoğlunun qəzəlinin yazıldığı XIII əsrə qədər istər Xaqaninin, istərsə də Nizaminin lirik şeirləri Azərbaycan şairlərinin qəsidədə, daha çox isə qəzəldə, artıq populyarlaşmağa başlayan bu lirik şeir növündə böyük uğurlar qazandığını sübut edir.

XII əsr Azərbaycan ədəbiyyatının qüdrətli nümayəndəsi Xaqani Şirvani lirik şeirin – xüsusilə, qəsidənin ustadlarından sayılır. Tədqiqatçılar qeyd edirlər ki, Yaxın və Orta Şərqin intibah dövrü ədəbiyyatında qəsidə janrının ən görkəmli nümayəndəsi məhz Xaqanidir. Hafiz və Füzulinin qəzəldə, Ömər Xəyyamın rübaidə göstərdiyi möcüzəni Xaqani qəsidə janrında göstərmişdir, onun fəxriyyə və mədhiyyələri XII əsr lirik şeirinin kamil nümunələri olmaqla yanaşı, şeirdə bədii təsvir

vasitələrinin mükəmməlliyi, obrazlı ifadə tərzinin orijinallığı baxımından da bütün Şərq poeziyasının inciləri hesab olunur. Əlbəttə, dünyanı təsvir etməyə qadir olan bir şairin şahları vəsf etməyi, sevinclə, kədərlə, arzuyla, sevgiylə dolu olan bu gözəl və mürəkkəb dünyada hökmdarları mədh etmək, sərhədsiz mübaliğələrlə onları zirvəyə qaldırmaq, indiki meyarlarla yanaşsaq, şeiriyyətin məhvı idi, Lakin Xaqani şeirinin yetkin, kamil obrazlar sistemi o qədər güclüdür ki, qəsidənin (mədhiyyənin) kimə, hansı şaha yazılması deyil, necə yazılması diqqəti cəlb edir. Hərçənd ki, Xaqani sarayın iç üzünü, oradakı rəzalət və mənəvi miskinliyi görüb mədhiyyəçilikdən uzaqlaşmış, həbsiyyələri isə ikinci Xaqanini - zəmanəyə, şahlara, ədalətsizliklərə üsyan edən Xaqanini tanıtmışdı.

*Hər səhər qalxar göyə ah ilə əfqanım mənim,*
*Qərq olar qanda şəfəq tək çeşmi-giryanım mənim.*
*Qurmuşam qəm məclisi, yanmış söyüd tək indi, bax,*
*Mey süzür məndən mənimçün qanlı müjganım mənim.* [12, s.95]

"Həbsdən şikayət" adlanan bu şeir qəsidə janrındadır. Xaqaninin mədhiyyələri, fəxriyyələri də bu janrdadır. Lakin məlumdur ki, qəsidənin bu müxtəlif növləri arasında məzmun eyniliyi yoxdur. Mədhiyyələrdə, daha əvvəl də qeyd etdiyimiz kimi, Şirvanşah Mənuçöhrin yerə-göyə sığmayan tərifi əsas yer tutursa, fəxriyyədə şairin özünütəsdiqi, yer üzünə yayılmış şöhrətinin sədası haqqında söhbət gedir. Bu lirik şeir növlərinin Şərq və Azərbaycan poeziyasında ən kamil nümunələrini Xaqani yaratmışdır.

Tənqidçi, filologiya elmləri doktoru Vaqif Yusifli "Qəzəl dünyamız" adlı məqaləsində yazır: *"XII əsr Azərbaycan lirik şeirinin şahı olan qəzəl bir çox xüsusiyyətlərinə görə poeziyanın sonrakı inkişaf mərhələləri üçün stimula çevrilir. Qəzəlin texniki ünsürü-təxəllüs vermək (ilk dəfə Xaqanidə) artıq qanuni hala keçir. Amma ilk növbədə, qəzəldə ifadə olunan məzmun-tematika genişliyini qeyd edə bilərik. Məhəbbətin, eşqin ali bir hiss kimi tərənnümü, romantik həyatın təsviri, fəlsəfi-ictimai motivlər qəzəlin başlıca mövzusuna çevrilir. Bununla bahəm, qəzəldə poetik ustalıq, klassik Şərq şeirinə məxsus obrazlılığın təcəssümü xüsusilə diqqəti cəlb edir"* [11, s.189].

Xaqaninin qəsidələri ilə yanaşı, lirik şeirləri də (qəzəlləri, qitələri, rübailəri) Azərbaycan poeziyasının inciləridir, bunu tədqiqatçılar da qeyd edirlər. Mədhiyyələrindən fərqli olaraq Xaqani məhəbbəti tərənnüm edən lirik şeirlərində real, gerçək hissləri qələmə almışdır:

*Getdikcə bu eşqin mərəzi pürxətər oldu,*
*Dərman elədikcə ona, döndü bətər oldu.*
*Eşqin odu yandırdı mənim canımı, ey vah!..*
*Bu vaqiədən cümlə cahan bixəbər oldu.* [12, s.231]

Akademik Həmid Araslı Nizaminin öz lirik şeirlərində xalq mahnılarından, şifahi xalq ədəbiyyatından bacarıqla istifadə etməsini, bu qəzəllərdə məhəbbətə yeni məna verməsini, ictimai məsələlərdən söz açmasını, fəlsəfi fikirlər ifadə etməsini, bədii xüsusiyyətlərinə görə seçilməsini yenilik hesab edir. Həmid Araslı yazır: *"Nizaminin qəzəlləri bir çox cəhətdən nəzər-diqqəti cəlb edir. Şübhəsiz ki, qəzəl Nizami ilə başlamır. Nizamidən çox-çox əvvəl yaşamış şairlər qəzəl yazdıqları kimi, Nizami müasirləri də qəzələ biganə olmamışlar. Lakin Nizami qəzəlləri Nizami müasirlərinin qəzəllərindən çox fərqlənir"* [8, s.6]. Nizaminin əldə olan "Divan"ından yalnız 60-a yaxın lirik şeiri dahi şairin anadan olmasının 800 illiyi ərəfəsində dilimizə tərcümə olunmuşdur, oxucuların sevə-sevə oxuduqları bu lirik şeirlər çox keçmədən mahnılara, bəstələrə çevrilmişdir. Nizaminin şairlik məharəti, hər beytində sənətkarlıq qüdrəti istənilən qəzəlində nümayiş olunur:





*Saçların dağınıqmıdır, dünyamı, ya karım mənim?*
*Zərrədən ağzınmı dardır, ya dili-zarım mənim?*
*Gecəmi, qəlbinmi, ya halınmı, ya xalın qara?*
*Bal şirinmi, ya ləbin, ya incə göftarım mənim?*
*Ayla gün parlaqmıdır, fikrimmi, ya ruyin sənin?*
*Taleyimmi tez dönən, rəyin, ya ruzigarım mənim?*
*Səbrim azmı, ya gözəllərdə vəfa, ya səndə şərm?*
*Hüsnün artıq, ya bu hədsiz qüssəm, azarım mənim?*
*Gözlərim çox qan tökür, şahın qılıncı, ya fələk?*
*De qılınc kəskinmi, qəmzən, ya ki, bazarım mənim?* [8, s.64]

Əliağa Vahidin tərcüməsində təqdim edilən bu lirik şeirdə iki mövzu paralel şəkildə verilmişdir. Şair sevdiyi gözəlin vəfasızlığı ilə dövranın, yaşadığı mühitin və dünyanın etibarsızlığından söz açır. Bədii təzadlar və suallar üzərində qurulmuş bu qəzəldə lirik qəhrəmanın mənəvi durumu göz qabağındadır, o, "şahın qılıncı və fələyin" amansızlığı ilə sevdiyi gözəlin qəmzəsinin kəskinliyi qarşısında naçar qalıb. Nizaminin lirik şeirləri farscadan dilimizə tərcümə olunduqdan sonra da öz bədii-poetik təravətini itirməmişdir. Elə məhz buna görə də "Ay üzlü nigarım, kimə mehman olacaqsan", "Sənsiz", "Gözüm aydın, gözümə surəti-canan görünür", "Gecə xəlvətcə bizə sevgili yar gəlmiş idi", "Yol çətin, aləm qaranlıq, atını bir yana çək", "Sərxoşluq edən dövlət, huşyar olacaq bir gün" və s. qəzəlləri Azərbaycan şeir xəzinəsinin qiymətli inciləridir.

Ümumiyyətlə, lirikanın Azərbaycan ədəbiyyatında keçdiyi yol çoxmərhələlidir və hər mərhələdə lirika təkmilləşə-təkmilləşə, cilalana-cilalana özünün bugünkü səviyyəsinə gəlib çatmışdır. Görkəmli ədəbiyyatşünas, həm də bir şair kimi də tanınmış Mikayıl Rəfili lirikanın mahiyyəti barədə yazır: *"Lirik şeir yalnız şairin daxili aləmini əks etməz, bəlkə həyat şairin qəlbində, hisslərində və fikirlərində bir büllurda əks olunan kimi görünər və bu inikas bizə həyatı tanıtdırar, həyatın müəyyən bir hadisəsini nəql edər"* [10, s.228].

Lirik şeirin ümumiləşdirici mahiyyətini ifadə edən bu fikir əsrlər boyu sınaqdan keçmiş, fərdi, subyektiv duyğuların məhsulu olan şeir bu dar çərçivədən sıyrılıb geniş üfüqlərə can atmışdır. Yəni xalqın, böyük oxucu auditoriyasının maraq dairəsinə daxil olmuşdur. Lirikanın əsrlər boyu yaşamasının, nəsillərdən nəsillərə mənəvi sərvət kimi gəlib çatmasının səbəbi də məhz elə bundadır.

Lirikanın, insan duyğularının tərcümanı olan şeirin bu qədər uzunömürlü olmasının səbəblərinə gəldikdə, burada bir neçə amili nəzərə çarpdırmaq lazımdır.

Birinci səbəb: klassik poeziyada şeirə, onun insan həyatında oynadığı rola həmişə yüksək dəyər verilmişdir. Xaqani, Nizami, Füzuli kimi söz korifeyləri şeirə, sözə ilahinin möcüzəsi kimi yanaşmışlar. *"Bu xəlvət pərdəsini açan zaman əlbəəl, Söz oldu bu cahanda cilvələnən ilk gözəl"* ("Sirlər xəzinəsi") – deyən Nizami Gəncəvi "Leyli və Məcnun" poemasında Sözün missiyasını belə qiymətləndirir:

*İnci tək sözlər seç, az danış, az din,*
*Qoy az sözlərinlə dünya bəzənsin.* [9, s.49]

Nizamiyə görə sənətkar mütləq fitri istedada malik olmalıdır, əgər bir şairin ilhamdan mayası yoxsa, o, yalnız şairlik həvəsinə düşübsə, o, şair yox, təqlidçi olacaq. O, "Məxzənül-əsrar"da *"Səfin önü, arxası o zaman ki, düzəldi, Əvvəlcə peyğəmbərlər, sonra şairlər gəldi"* deməklə Sözün – Şeirin əsl sahibləri olan şairləri peyğəmbərlərlə müqayisə edir. Nizaminin böyük müasiri olan Xaqani Şirvani isə *"Şaham, mənim əlimdədir, bu söz mülkü, söz diyarı, Bu dünyada tək mənimdir söz mülkünün ixtiyarı"* deməklə əsl sənətkarın (yəni özünün) timsalında Sözə, şeiriyyətə hökmran olduğunu təsdiqləyirdi.

*Sənətkarlıq nədir? Bilmək istəsən,*
*Gəl onun sirrini sən məndən öyrən.*
*İndi söz günəşi aləmdə mənəm,*
*Şairlərdən üç qat ucadır rütbəm.*
*Dövrəmdə ay kimi gəzirlər onlar,*
*İlham mayasını məndən alırlar.* [12, s.51]

Klassik poeziyada Sözün idraki rolu, fəlsəfi mahiyyəti, həyatverici gücü barədə, onun Tanrıdan, İlahidən gələn sehirli bir qüvvə, Allah kəlamı kimi məna kəsb etməsi Nəsiminin "Söz" rədifli qəzəlində daha parlaq şəkildə təcəssümünü tapmışdır:

*Dinləgil bu sözü ki, candır söz,*
*Aliyü asiman məkandır söz.*
*Ərşi-küll, ərşikürsi, lövhü qələm,*
*Çar ünsür, nöh asimandır söz.*
*Zahirü batin, əvvəlü axir,*
*Aşikaravü həm nihandır söz.* [5, s.321]

Klassik poeziyada Sözün, şeirin və şairliyin mahiyyəti ilə bağlı ən dolğun, ən mükəmməl şərhlər Məhəmməd Füzuliyə məxsusdur. Onun "Söz" rədifli qəzəli klassik poeziyamızın bu üç məfhumla (Söz, Şeir, Şair) bağlı bütün məqamlarına aydınlıq gətirir. Füzulişünas Sabir Əliyev yazır: *"Füzuli elmli şeirin, intellektual poeziyanın, həm sistemli nəzəriyyəsini yaradan, həm də parlaq təcrübəsini verən dahi alim şairimizdir. O, özünəqədərki elmli şeir barədə mülahizə və nümunələri ümumiləşdirib inkişaf etdirərək elm və sənət halında zamanına təqdim etmişdir"* [2, s.4].

"Elmsiz şeir əsası yox divar olur. Və əsassız divar qayətdə bietibar olur" – dahi şairin şeir haqqındakı bu fikri ədəbiyyat nəzəriyyəsində bir aksioma kimi qəbul edilir. Şairin sələflərinin yaradıcılığında ədəbi praktikada təsbit edilən bu fikri Füzuli genişləndirərək, Türk Divanının dibaçəsində elmi əsaslarla şərh etmişdir. Təbii ki, Füzuli bu fikri söyləməklə heç də poeziya ilə elmi eyniləşdirmək istəmirdi, sadəcə olaraq, şeirin də əsasında elmdə olduğu kimi bilik, məlumat və informasiya zəruriliyini irəli sürürdü, lakin bütün bunlar bədii lövhələrlə, şairanə təsvirlərlə oxucuya çatdırılmalıdır. Füzulinin şeir haqqında, söz haqqında fikirləri bədiilik tələbi üzərində qurulub.

*Xəlqə ağzın sirrini hərdəm qılır izhar söz,*
*Bun ə sirdir kim olur hər ləhzə yoxdan var söz.*
*Artıran söz qədrini sidq ilə, qədrin artırar*
*Kim, nə miqdar olsa, əhlin eylər ol miqdar söz.*
*Ver sözə ehya ki, tutduqca səni xabi-əcəl,*
*Edə hər saət səni ol uyqudan bidar söz.* [6, s.167]

Bu qəzəlin füzulişünaslar tərəfindən bir neçə şərhi mövcuddur. Biz bu şərhləri bir-bir nəzərdən keçirdik. Qəzəldə bütün beytlər sözün ölməzliyini, elmli əsərin, istedadla yazılmış şeirin dünya durduqca yaşayacağını və sənətkarını da yaşadacağını təsdiq edir. Qəzəlin əsas qayə və mahiyyətini daha aydın şəkildə dərk etmək üçün professor Sabir Əliyevin verdiyi və dəqiqliyi, şairin mizacını tam mənası ilə açıb göstərə bilən şərhə baxaq: *"Şair "sidq" (doğruluq, gerçəklik, həqiqət, reallıq) sözü ilə peyğəmbərin VII əsr ərəb sehirkarlığında sezib Quranda rədd etdiyi sənət kizbinə (yalan), bədiilik və obrazlılıq adı altında ədəbiyyata doldurulan hərzə-hədyana qarşı çıxır, peyğəmbərin mövqeyini təsdiq və qəbul edir. "Söz" kəlməsi ilə, ümumiyyətlə, zehni yaradıcılıq, elm, şeir, nitq və hər cür informasiya nəzərdə tutulur və doğruluq, səmimiyyət bunların əsas keyfiyyəti kimi irəli sürülür. Füzuli hər cür sözü müqəddəs kəlam, vəhyi-səmavi, bəxşi-ilahi kimi doğru və riyasız görmək istəyir. Yalnız belə olanda müəllif (natiq, şair) həqiqi qiymət qazanıb əbədi yaşaya bilər"* [3, s.253].





Professor Samət Əlizadə, füzulişünas Ələmdar Mahir də sözügedən qəzələ maraqlı şərhlər vermişlər.

Professor Samət Əlizadə qəzəlin ən məşhur və bir zərbül-məsələ çevrilmiş beytinin izahında yazır ki, *"Söz müqəddəsdir; onun qədir-qiymətini ancaq düzlüklə, yəni doğruluğa sədaqətlə artırmaq olar. Sözün dəyəri nə qədər artırsa, danışanın da qədri, hörməti o qədər artır. Sözün qiymət ölçüsü onu söyləyənin qiymətinin meyarıdır. Bu fikir həm şifahi nitqə, həm də yazı dilinə aiddir"* [4, s.117].

Diqqəti çəkən bir məqam da bu şərhlərin bir-birilərini əsla təkrar etməməsidir. Ələmdar Mahirin şərhi isə sadəliyi ilə yadda qalır: o, insan şəxsiyyətinin, daxili aləminin, əxlaq və tərbiyəsinin bəlli olmasında sözün əvəzsiz rolunu və dahi şairin də diqqəti bu mətləbə yönəltmək istədiyini bildirir [7, s.448].

Gördüyümüz kimi, hər bir müəllif beytdəki mənanı öz düşüncə və baxış açısından, amma həqiqətə uyğün şərh edir. Professor Sabir Əliyevin şərhində Sözün məna və mahiyyəti daha dolğun şəkildə ifadə edilmişdir, bu kəlmənin müqəddəsliyi bəxşi-ilahi, vəhyi-səmavi ilə tay tutulur, proferssor Saməd Əlizadə sözün dəyərini onu söyləyənin qiymətinin meyarı hesab edir. Füzulişünas Hacı Ələmdar Mahir isə Söz və Şair vəhdətinin reallığı üzərində dayanır, sözün möcüzə yaratmasını və sirr açmasını da onu söyləyənin səviyyəsi ilə ölçür.

## Nəticə / *Conclusion*

Füzulinin "Söz" rədifli qəzəli ilə bağlı bu söylənilənlər belə qənaətə gəlməyə əsas verir ki, lirik şeirin əsrlər boyunca yaşamaq hüququ qazanmasının başlıca səbəbləri onun poetik enerjisi, oxucuya gözəl hisslər bağışlaması, incə, zərif, insani duyğular aşılamağı bacarması və onda yüksək zövqün formalaşmasına vəsilə olmasıdır. Burada, təbii ki, şairin istedadı, "sözə ehya vermək" məharətinin də əvəzedilməz rolu vardır.

## Ədəbiyyat / *References*


1. Cəfər Cabbarlı. Əsərləri: [4 cilddə] / tərt. ed. A.Rüstəmli – Bakı: Şərq-Qərb, – 2005. – c.4. – 288 s.
2. Əliyev, S. Füzuli / S.Əliyev. – Bakı: Azərnəşr, – 1996. – 316 s.
3. Əliyev, S. Füzuli qəzəllərinin şərhi: [4 cilddə] / S.Əliyev. – Bakı: Adiloğlu, – 2004. – c.2. – 303 s.
4. Əlizadə, S. Şah beytlər: Füzuli "Divan"ına şərhlər / S.Əlizadə. – Bakı: Azərnəşr, – 1995. – 172 s.
5. İmadəddin Nəsimi. Seçilmiş əsərləri / tərt. ed. H.Araslı. – Bakı: Azərnəşr, – 1973. – 672 s.
6. Məhəmməd Füzuli. Əsərləri: [5 cilddə] / tərt. ed. H.Araslı. – Bakı: EA nəşriyyatı, – 1958. – c.1. – 465 s.
7. Mahir, Ə. Füzuli qəzəllərinin şərhi: [3 cilddə] / Ə.Mahir. – Bakı: Elm və təhsil, – 2012. – c.2. – 499 s.
8. Nizami Gəncəvi. Qəzəllər / buraxılışa məsul Z.Səlimova – Bakı: Azərnəşr, – 1956. – 85 s.
9. Nizami Gəncəvi. Leyli və Məcnun / farscadan tərc. ed. S.Vurğun ; M.Əlizadə, S.Mirqasımov. – Bakı: EA nəşriyyatı, – 1959. – 277 s.

10. Rəfili, M. Ədəbiyyat nəzəriyyəsinə giriş / M.Rəfili. – Bakı: Lenin adına APİ-nin nəşriyyatı, – 1958. – 275 s.
11. Yusifli, V. Qəzəl dünyamız // – Bakı: Azərbaycan" jurnalı, – 2017. № 5, – s. 182-194.
12. Xaqani Şirvani. Seçilmiş əsərləri / red. Azəroğlu. – Bakı: Azərnəşr, – 1978. – 321 s.

## Первые примеры Азербайджанской Диванной поэзии и миссия слова

**Акрам Гасанов**
Доктор философии по религиоведению, доцент
Институт рукописей имени Мухаммада Физули НАНА
E-mail: garibekrem@hotmail.com

**Резюме.** XII век привлекает внимание рядом значительных событий в истории азербайджанской литературы и искусства: прежде всего, воспитание великих мастеров слова, которые проявили мастерство в касыде, как Хагани, и маснави, как Низами, также развитие придворной литературы (в Гяндже и Ширване), деятельность писателей и мастеров слова, расцвет ренессансной культуры, развитие многих областей искусства, в частности, великолепные образцы архитектуры, активизация культурных и торговых связей с восточными и западными странами Азербайджана... Все это, несомненно, обусловило создание богатого духовного наследия. Литература обновлялась и обогащалась не только в содержательном отношении, но и в плане формоисполнения и поэтики. Не случайно первая «Хамса» («Пятерица») мировой литературы была написана Низами в XII веке. В этом столетии стали популярными и другие виды лирической поэзии. Первые успехи газели, ставшей самым распространенным жанром классической поэзии, относятся к XII веку.
В статье исследуются такие вопросы, как первые образцы и представители азербайджанской диванной поэзии, значение, придаваемое слову.
В ходе исследования использовался историко-сравнительный метод.
**Ключевые слова:** гасида, газель, слово, поэт, поэзия, традиция